AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# KREDİTLƏŞMƏ FƏALİYYƏTİNƏ DAİR SORĞUNUN NƏTİCƏLƏRİ

II rüb 2024

## Abreviaturlar

**İKZF** - İpoteka və Kredit Zəmanət Fondu

**KOS** – Kiçik və orta sahibkarlıq

**MKOS** – Mikro, kiçik və orta sahibkarlıq

# Mündəricat

Giriş ........................................................................................................ 4
Sorğu nəticələrinin xülasəsi ........................................................................... 5
Sahələr üzrə kreditlərin təhlili ........................................................................ 6
Biznes kreditləri ............................................................................................ 6
İpoteka kreditləri ........................................................................................... 9
İstehlak kreditləri ..........................................................................................11

# Giriş

*Sorğunun məqsədi bank sektorunun kreditləşmə fəaliyyətinin monitorinqi və təhlili, maliyyə sabitliyinə təhdidlərin erkən rejimdə aşkarlanması, qiymətləndirilməsi və müvafiq prudensial siyasətin müəyyən edilməsi, habelə maliyyə sektoru iştirakçılarının müvafiq trendlər barədə məlumatlandırılmasıdır. Sorğu biznes, istehlak və ipoteka kreditləşməsinə dair tələb və təklif amillərinin qiymətləndirilməsini, o cümlədən bankların risklərinin müəyyən edilməsi və qiymətləndirilməsini əhatə edir:*

- *kredit standartlarında (siyasətində) dəyişikliklərin dinamikası;*
- *kredit standartlarının dinamikasına təsir edən amillər;*
- *kredit tələbində dəyişikliklərin dinamikası;*

*Sorğu keyfiyyətin ölçülməsini hədəfləyən suallardan ibarətdir və cavablandırılması kəmiyyət qiymətləndirməsi tələb etmir. Sorğunun nəticələrinin kəmiyyət vahidlərinə çevrilməsi üçün balans statistikası metodologiyasından istifadə edilir. İndeks mənfi 100%-dən müsbət 100%-ə qədər dəyişir. Müsbət 100% indeks respondentlərin 100%-nin trenddə əhəmiyyətli yumşalma və ya artım, mənfi 100% indeks isə respondentlərin 100%-nin əhəmiyyətli dərəcədə sərtləşmə və ya azalma müşahidə etdiyini göstərir. İndeks 0% olduqda isə əvvəlki rüblə müqayisədə trendin dəyişmədiyini bildirir. İndeks hesablanarkən müvafiq kredit portfelində payından asılı olaraq bankların cavablarına çəki verilmişdir. Sorğunun respondentləri bankların baş kredit inzibatçısı və yaxud İdarə Heyətinin müvafiq sahə üzrə kuratorlarıdır.*

*Sorğu 2022-ci ilin I rübündən etibarən rüblük əsasda keçirilir. Cari hesabat 2024-cü ilin II rübü üzrə sorğunun nəticələrini əks etdirir. Hesabatda təqdim olunan gözləntilər Azərbaycan Mərkəzi Bankının gözləntilərini deyil, yalnız kreditləşmə fəaliyyətinə dair sorğunun respondentlərinin (bankların) kreditləşmənin cari və gələcək tendensiyası ilə bağlı qiymətləndirmələrini əks etdirir.*

## Sorğu nəticələrinin xülasəsi

2024-cü ilin II rübü üzrə sorğu nəticələrinə əsasən cəmi biznes kreditləri üzrə kredit standartları və kredit tələbində dəyişiklik olmasa da, MKOS subyektləri üzrə standartlarda yumşalma və tələbdə artım nəzərə çarpmışdır. Sorğuda iştirak edən banklar növbəti rübdə də MKOS subyektləri üzrə kredit standartlarında yumşalmanın davam edəcəyini və tələbdə artım gözlədiklərini bildirmişlər.

Sorğu nəticələrinə əsasən ötən rübdə olduğu kimi ipoteka kreditləri üzrə standartlarda sərtləşmə olmuşdur. İpoteka kreditləri üzrə standartlarda sərtləşmə daxili ipoteka kreditlərində müşahidə edilmişdir. Banklar ipoteka faiz dərəcələrinin artımı fonunda ipoteka kreditlərinə tələbin azaldığını bildirmişlər. Tələbdə azalma daxili ipoteka ilə verilən kreditlər üzrə olmuşdur. Bankların gözləntilərinə görə növbəti rübdə ipoteka kreditləri üzrə kredit standartlarında sərtləşmə və kredit tələbində azalma trendi davam edəcək. Sorğu nəticələrinə görə kredit standartlarındakı sərtləşmə və kredit tələbindəki azalma daxili ipoteka ilə verilən kreditlər hesabına olacaq.

Banklardan gələn sorğu nəticələrinə əsasən 2024-cü ilin II rübündə cəmi istehlak kreditləri üzrə kredit standartlarında dəyişiklik olmamışdır. Sorğu nəticələrinə əsasən 2024-cü ilin II rübündə istehlak kreditlərinə tələb artmışdır. Banklar növbəti rübdə cəmi istehlak kreditləri üzrə standartlarda və tələbdə dəyişikliyin olmayacağı qənaətindədirlər.

## *Sahələr üzrə kreditlərin təhlili*

### Biznes Kreditləri

2024-cü ilin II rübündə sorğu nəticələrinə əsasən MKOS subyektlərinə verilən kreditlər üzrə standartlarda yumşalma baş vermiş, iri sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə standartlarda dəyişiklik müşahidə edilməmişdir. Banklar tərəfindən növbəti rübdə MKOS subyektlərinə kreditlər üzrə standartlarda yumşalmanın davam etməsi, iri sahibkarlıq subyektlərinə kreditlər üzrə standartlarda isə dəyişiklik olmaması gözlənilir.

*Qrafik 1. Biznes kreditləri üzrə standart və tələb dəyişikliyi*

*Diffuziya indeksi: müsbət göstərici=yumşalma, mənfi göstərici=sərtləşmə*



Sorğu nəticələrinə əsasən 2024-cü ilin II rübündə MKOS subyektlərinə verilən kreditlərə tələbdə artım davam etmişdir. Bankların gözləntilərinə əsasən 2024-cü ilin III rübündə biznes kreditləri, xüsusilə MKOS kreditləri üzrə tələbdə artım müşahidə olunacaq.

*Qrafik 2. Biznes kreditləri üzrə kredit standartlarına təsir edən faktorlar*




2024-cü ilin II rübündə biznes kreditləri üzrə standartlara sərtləşdirici təsir edən amillər bankların maliyyələşmə dəyəri, bankın mövcud və gözlənilən likvidlik mövqeyi, ümumi iqtisadi və inflyasiya gözləntiləri olmuşdur. Uçot faiz dərəcəsinə dair gözləntilər isə biznes kreditləri üzrə standartlara yumşaldıcı təsir etmişdir.

# İpoteka kreditləri

Sorğunun 2024-cü il II rüb üzrə nəticələrinə əsasən ipoteka kreditləri üzrə standartlarda sərtləşmə müşahidə edilmişdir. Sərtləşmə bankların daxili resurslar hesabına verilən ipoteka kreditləri üzrə olmuşdur. İKZF hesabına verilən ipoteka kredit standartlarında dəyişiklik müşahidə edilməmişdir. Banklar növbəti rübdə də daxili ipoteka ilə verilən kreditlər üzrə standartlarda sərtləşmənin davam edəcəyini gözləyirlər.

*Qrafik 3. İpoteka kreditləri üzrə standart və tələb dəyişikliyi*

*(Diffuziya indeksi: müsbət göstərici=yumşalma, mənfi göstərici=sərtləşmə)*









2024-cü ilin II rübündə cəmi ipoteka kreditlərinə tələb azalmışdır. Respondentlərin cavablarına görə tələbdəki azalmanın əsas səbəbi daxili ipoteka kreditləri olmuşdur. Eyni zamanda, bankların İKZF hesabına verilmiş ipoteka kreditləri üzrə kredit tələbi də cari ilin əvvəlki rübü ilə müqayisədə azalmışdır. Sorğu nəticələrinə əsasən banklar növbəti rübdə də ipoteka kreditlərinə, o cümlədən daxili ipoteka kreditlərinə tələbin azalacağını proqnozlaşdırırlar.

*Qrafik 4. İpoteka kreditləri üzrə kredit standartlarına təsir edən faktorlar*

*(Diffuziya indeksi: müsbət göstərici=yumşalma, mənfi göstərici=sərtləşmə)*




Bankların sorğuda qeyd etdiyi cavablara görə ipoteka kreditləri üzrə kredit standartlarına maliyyələşmə dəyəri, digər banklarla rəqabət, daşınmaz əmlak bazarı, bankların kapital və likvidlik mövqeyi sərtləşdirici təsir göstərən faktorlar olmuşdur.

# İstehlak kreditləri

Sorğunun nəticələrinə əsasən 2024-cü ilin II rübündə cəmi istehlak kreditləri üzrə kredit standartlarında dəyişiklik nəzərə çarpmasa da, kredit kartları üzrə kredit standartlarında sərtləşmə müşahidə edilmişdir. Banklar əvvəlki rübdən fərqli olaraq əməkhaqqı kreditləri üzrə kredit standartlarında dəyişiklik müşahidə etmədiklərini bildirmişlər. Sorğuya əsasən banklar 2024-cü ilin III rübündə əməkhaqqı kreditləri üzrə standartlarda dəyişiklik olmayacağını və kredit kartları üzrə standartlarda sərtləşmələrin yer alacağını proqnozlaşdırırlar.

*Qrafik 5. İstehlak kreditləri üzrə standart və tələb dəyişikliyi*

*(Diffuziya indeksi: müsbət göstərici=yumşalma, mənfi göstərici=sərtləşmə)*



Sorğu nəticələrinə əsasən ümumi istehlak kreditlərinə tələb artmışdır. Sorğuda iştirak edən respondentlərin cavablarına görə bu artım əsasən əməkhaqqı kreditləri və məişət avadanlıqlarının alınması üzrə verilən kreditlər hesabına olmuşdur. Banklar 2024-cü ilin növbəti rübündə ümumi istehlak kreditlərinə tələbdə dəyişiklik olmayacağını proqnozlaşdırırlar.

*Qrafik 6. İstehlak kreditləri üzrə kredit standartlarına təsir edən faktorlar*

*(Diffuziya indeksi: müsbət göstərici=yumşalma, mənfi göstərici=sərtləşmə)*




Sorğu nəticələrinə əsasən istehlak kreditləri üzrə inflyasiya gözləntiləri və maliyyələşmə dəyəri kredit standartlarına sərtləşdirici təsir etmişdir. Əvvəlki rüblə müqayisədə bankın mövcud və gözlənilən likvidlik mövqeyi sərtləşdirici faktor kimi daha az təsirə malik olmuşdur. Həmçinin cari ilin I rübündən fərqli olaraq II rübdə bankın mövcud və gözlənilən kapital mövqeyi ipoteka kredit standartlarına yumşaldıcı faktor kimi təsir etmişdir. Sorğuya əsasən digər banklarla rəqabət də kredit standartlarına yumşaldıcı təsir etmişdir.

*Qrafik 7. Əhalinin borclanma səviyyəsi üzrə diffuziya indeksi*

*(Diffuziya indeksi: müsbət göstərici=yumşalma, mənfi*




*Qrafik 8. Son rüb ərzində əhalinin borclanma səviyyəsində dəyişikliklər*




Kreditləşmə fəaliyyətinə dair sorğunun cari ilin II rüb üzrə nəticələrinə əsasən respondent bankların 75%-i əhalinin borclanma səviyyəsində dəyişiklik olmadığını, 25%-i isə orta dərəcədə artım olduğunu bildirmişdir. Əhalinin borclanma səviyyəsi üzrə uzunmüddətli diffuziya indeksi 2024-cü ilin II rübündə 4 f.b artaraq 23% təşkil etmişdir.